# Gəncəlilər Heydər Əliyev Fondunun fəaliyyətinə yüksək qiymət verirlər





Gəncədə "Heydər Əliyev Fondu və Gəncə" adlı tədbir keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, bələdiyyə sədrləri, eləcə də idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə Azərbaycanın hərtərəfli inkişafı proseslərində daim yaxından iştirak edərək mühüm xidmətləri ilə seçilən, ictimaiyyətin böyük rəğbət və ehtiramını qazanmış Heydər Əliyev Fondunun fəaliyyəti haqqında geniş məlumat verilib. Çıxış edən Niyazi Bayramov bildirib ki, Heydər Əliyev Fondu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 20 il ərzində ölkə həyatının bütün sahələrini əhatə edən irimiqyaslı layihələr həyata keçirib. YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov isə vurğulayıb ki, fəaliyyəti dövründə fond Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl işlər aparıb.

Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanmış "Heydər Əliyev Fondu və Gəncə" adlı videoçarx nümayiş etdirildikdən sonra Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə hazırladığı "Mehriban xanım Əliyeva: humanizmin və xeyriyyəçiliyin hamisi" adlı kitabın təqdimatı olub. Kitabda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun 20 il ərzində həyata keçirdiyi layihələrdən bəhs edilir.

Tədbir Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Göygöl Mahnı və Rəqs Ansamblı solistlərinin ifasında nəfis muğam nümunələri ilə yekunlaşıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 28 avqust (№ 184).- S.12.